**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin**
**2023-cü ilin yekunlarına dair**

# MƏTBUAT BURAXILIŞI

## Giriş

2023-cü il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizin müstəqil, qətiyyətli və prinsipial xarici siyasət kursu uğurla həyata keçirilib. Bu siyasət dövlətimizin milli maraqlarının təmin olunmasına, o cümlədən milli təhlükəsizlik və sosial-iqtisadi inkişaf üçün əlverişli mühitin yaradılmasına yönəlib.

Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyinin qeyd olunduğu 2023-cü ildə xarici siyasətimiz məzmun baxımından çox zəngin olub.

2023-cü ildə Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa edib, beləliklə regionda beynəlxalq hüquqa və ədalətə əsaslanan düzənin bərqərar olunması üçün əsas yaradılıb.

Bu proses zamanı bəzi dairələrin açıq qərəz və ikili standartlara əsaslanan yanaşmalarının ikitərəfli münasibətlərə, habelə regiondakı vəziyyətə müəyyən çətinliklər törətməsinə, xarici siyasətimiz üçün müəyyən çağırışlar yaratmasına baxmayaraq, Azərbaycanın qətiyyətli və prinsipial yanaşması, eyni zamanda konstruktiv və fəal dialoq xəttini tutması bu çağırışların öhdəsindən gəlməyə imkan verib.

İl ərzində Azərbaycan dünya dövlətlərinin böyük əksəriyyəti ilə suveren bərabərlik və qarşılıqlı hörmət əsasında dostluq münasibətlərini davam etdirib, bəşəriyyət qarşısında duran ümumi təhdid və çağırışlarla əlaqədar müvafiq tədbirlərin görülməsi üçün digər dövlətlərlə birlikdə iş aparıb. Azərbaycan il ərzində bir neçə beynəlxalq təşkilat və qurumda uğurlu sədrlik həyata keçirib, 74-cü Beynəlxalq Astronavtika Konqresi, Qoşulmama Hərəkatının (QH) COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü, QH-nın Əlaqələndirmə Bürosunun nazirlər görüşü, BMT-nin Mərkəzi Asiya İqtisadiyyatları üçün Xüsusi Proqramına (SPECA) üzv dövlətlərin Zirvə görüşü, İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının 27-ci iclası, İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzv dövlətlərinin əmək nazirlərinin konfransı, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatının (UNESCO) Bədən tərbiyəsi və idman üzrə nazirlərin və yüksək vəzifəli şəxslərin VII konfransı kimi beynəlxalq tədbirlərə ev sahibliyi edib.

## Xarici dövlətlər ilə ikitərəfli münasibətlər

Əvvəlki illərdə olduğu kimi **qonşu dövlətlərlə münasibətlər** xarici siyasətimizdə xüsusi prioritet yer tutub. İl ərzində Türkiyə, Rusiya və Gürcüstan ilə ali səviyyədə baş tutmuş görüşlər, habelə əldə olunmuş razılaşmaların praktiki səviyyədə icrası ikitərəfli əməkdaşlığın inkişafını təmin edib.

27 yanvar tarixində Azərbaycan Respublikasının İran İslam Respublikasındakı Səfirliyinə silahlı terror hücumu İran ilə münasibətlərdə ciddi gərginliyə səbəb olub, səfirliyin heyəti təxliyə olunub. Bununla yanaşı, gərginliyin aradan qaldırılması və münasibətlərin perspektivləri barədə müzakirələr davam etdirilib, yüksək səviyyəli təmaslar baş tutub. İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərgi Zəngəzur

iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması istiqamətində praktiki işlərə başlanılıb.

Mövcud ikitərəfli və digər əməkdaşlıq formatlarını tamamlamaq, regionda təhlükəsizliyi və sabitliyi gücləndirmək, iqtisadi artım və tərəqqi naminə istifadə edilməmiş potensialı üzə çıxarmaq üçün əhəmiyyətli imkanlara malik olan "3+3" regional məşvərət formatının xarici işlər nazirləri səviyyəsində ilk iclası Tehranda keçirilib.

Ümumi tarixi və mədəni bağlara malik olduğumuz **Mərkəzi Asiya** ölkələri ilə il ərzində təmasların intensivliyi, xüsusilə də ali səviyyədə səfərlər bu region ölkələri ilə münasibətlərimizin strateji xarakterini bir daha nümayiş etdirib. İl ərzində Azərbaycan Respublikası Prezidentinin Mərkəzi Asiya dövlətlərinə 6 səfəri, Mərkəzi Asiya ölkələrinin prezidentləri tərəfindən isə ölkəmizə 8 səfər həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 14 sentyabr tarixində Tacikistanın paytaxtı Düşənbə şəhərində keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Beşinci Məşvərət Görüşündə ilk dəfə olaraq fəxri qonaq qismində iştirak edib.

Azərbaycanın bir sıra Avropa dövlətləri, xüsusilə də **Mərkəzi və Cənub-Şərqi Avropa** ölkələri ilə münasibətləri il ərzində xüsusi dinamikaya malik olub. 2023-cü ildə Ruminiya, Bolqarıstan, Albaniya və Monteneqronun dövlət və hökumət başçılarının Azərbaycana, dövlət başçımızın isə Macarıstan, Bolqarıstan, Bosniya və Herseqovina və Serbiyaya səfərləri baş tutub. 30 yanvar tarixində Macarıstan ilə genişləndirilmiş strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, 13 aprel tarixində Bosniya və Herseqovina ilə strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalanıb.

**Yaxın Şərq və Afrika** ölkələri ilə ənənəvi yaxın münasibətlər daha da inkişaf etdirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə, eləcə də Misir Ərəb Respublikası və İraq Respublikasının dövlət başçılarının ölkəmizə səfərləri xüsusilə qeyd olunmalıdır. İl ərzində 20 Yaxın Şərq və Afrika ölkəsinin xarici işlər nazirləri ilə görüşlər baş tutub.

**Asiya** ölkələri ilə də münasibətlər diqqət mərkəzində olub. Azərbaycan və Çin arasında il ərzində qarşılıqlı fəaliyyət, o cümlədən hökumətlərarası komissiyanın iclasının keçirilməsi, Çində Azərbaycanın növbəti ticarət evinin açılışı və digər tədbirlər iki ölkə arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın böyük perspektivlərinin olduğunu nümayiş etdirib. 14-15 iyun tarixlərində Pakistan İslam Respublikasının Baş naziri Şehbaz Şərif ölkəmizdə rəsmi səfərdə olub. Koreya Respublikası və Hindistan ilə müvafiq olaraq 7 iyun və 25 oktyabr tarixlərində hökumətlərarası komissiyaların iclasları keçirilib. Azərbaycanın Filippin və İndoneziya ilə parlamentlərarası əlaqələri inkişaf edib.

**Cənubi, Mərkəzi və Şimali Amerika** ölkələri ilə dialoq davam etdirilib, ABŞ, Meksika, Kuba, Kolumbiya və Venesuela ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlar çərçivəsində təmaslar baş tutub. Peru, Venesuela və Braziliya ilə parlamentlərarası əlaqələr inkişaf edib.

**İkitərəfli və çoxtərəfli əsasda hüquqi sənədlərin imzalanması** istiqamətində iş aparılıb. İl ərzində 44 ölkə ilə (ABŞ, Albaniya, Belarus, Belçika, Böyük Britaniya, Braziliya, Çexiya, Esvatini, Filippin, Hindistan, İraq, İsveçrə, İtaliya, Kolumbiya, Maldiv, Mərakeş, Moldova, Monteneqro, Özbəkistan, Qazaxıstan, Qətər, Qırğız Respublikası, Ruanda, Rumıniya, Serbiya, Səudiyyə Ərəbistanı, Somali, Tacikistan, Türkiyə, Şimali Makedoniya, Uqanda, Venesuela və Yaponiya və s.) müxtəlif sahələri əhatə edən ümumilikdə 161 sənəd imzalanıb.

İl ərzində 25 ölkənin (Çexiya, İtaliya, Litva, Sloveniya, Avstriya, Almaniya, Bolqarıstan, Pakistan, Filippin, Qazaxıstan, Moldova, Özbəkistan, Gürcüstan, Rusiya, Səudiyyə Ərəbistanı, Qətər, İordaniya, Efiopiya, Əlcəzair, Cibuti, Uqanda, Oman, Meksika, Kolumbiya, Kuba) xarici işlər nazirlikləri ilə **siyasi məsləhətləşmələr** keçirilib.

2023-cü ildə **yeni diplomatik missiyaların açılması** işi davam etdirilib. Azərbaycan Respublikasının Slovakiya Respublikasında (Bratislava şəhərində) Səfirliyi təsis edilib. Azərbaycan Respublikasının xaricdə diplomatik missiyalarının ümumi sayı **90-a** çatıb (67 səfirlik, 6 daimi nümayəndəlik, 9 baş konsulluq, 7 səfirlik ofisi və 1 təmsilçilik ofisi). 29 mart tarixində ölkəmizin İsraildə (Tel-Əviv şəhərində) Səfirliyinin açılış mərasimi keçirilib, tədbirdə Azərbaycan və İsrailin xarici işlər nazirləri iştirak edib.

## Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq

Azərbaycan Respublikası **QH sədri** qismində Bandunq Prinsipləri əsasında Hərəkatın məram və məqsədlərinin reallaşdırılması istiqamətində digər üzv dövlətlər ilə birlikdə məqsədyönlü fəaliyyət aparıb. Bu xüsusda, 2 mart tarixində Bakıda COVID-19 pandemiyasına qarşı mübarizə üzrə Təmas Qrupunun pandemiyadan sonrakı bərpa məsələlərinə həsr olunmuş Zirvə görüşünün, 5-6 iyulda QH Əlaqələndirici Bürosunun Nazirlər iclasının, 6 iyulda QH-nın Gənclər Təşkilatının mənzil qərargahının rəsmi açılışının, 22 sentyabrda Nyu-Yorkda Azərbaycan və Kubanın sədrliyi ilə QH – G77 Birgə Əlaqələndirmə Komitəsinin yüksək səviyyəli iclaslarının keçirilməsini, eləcə də Hərəkat daxilində sahəvi əməkdaşlığın inkişafı, habelə ayrı-ayrı mövzular üzrə dialoq ilə bağlı irəli sürülmüş təşəbbüs və təşkil edilmiş tədbirləri qeyd etmək olar.

Bakıda QH Əlaqələndirici Bürosunun Nazirlər iclası çərçivəsində Yekun sənəd, Bakı Bəyannaməsi, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Anım Bəyannaməsi kimi mühüm sənədlər qəbul edilib.

Azərbaycan tərəfi növbəti ildən QH-nın sədrliyini təhvil alacaq Uqanda ilə öz uğurlu sədrlik təcrübəsini bölüşüb.

Azərbaycan 2023-cü ildə **SPECA-ya** "SPECA regionunun qlobal miqyaslı rabitə qovşağına çevrilməsi" ("Transforming the SPECA Region into a Connectivity Hub with Global Outreach") mövzusu üzrə sədrlik edib.

Sədrliyimiz tərəfindən 20-24 noyabr tarixlərində Bakı şəhərində bir neçə tədbiri ehtiva edən SPECA Həftəsi və SPECA-nın 25 illik tarixi ərzində ilk dəfə olaraq Zirvə görüşü keçirilib. Zirvə görüşü çərçivəsində Bakı Bəyannaməsi qəbul olunub, Orta Dəhliz boyu multimodal məlumat və sənəd mübadiləsinin rəqəmsallaşdırılması üzrə Yol Xəritəsi təsdiq edilib, habelə SPECA Etimad Fondunun yaradılması razılaşdırılıb. Azərbaycan bu fonda 3,5 milyon ABŞ dolları həcmində töhfə verəcəyini elan edib.

Azərbaycanın "Yaşıl keçid və qarşılıqlı əlaqəlilik" ("2023-Year of Green Transition and Interconnectivity") mövzusu üzrə **İqtisadi Əməkdaşlıq Təşkilatına** sədrliyi həyata keçirilib. Daşkənddə keçirilmiş 16-cı Zirvə toplantısında 2025-ci ildə Təşkilatın növbəti sammitinin Azərbaycanda təşkil olunması barədə qərar qəbul edilib.

Azərbaycan Sədrliyi tərəfindən il ərzində Təşkilatın nəqliyyat, gömrük və turizm istiqamətləri üzrə sahəvi əməkdaşlığı ilə bağlı tədbirlər, habelə 10 oktyabr tarixində Şuşada Təşkilatın əsas qərarverici orqanı olan Xarici İşlər Nazirləri Şurasının (XİNŞ) 27-ci iclası keçirilib, Şuşa Bəyannaməsi qəbul olunub.

5 oktyabrda Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin turizm nazirlərinin iclasında Şuşa şəhəri Təşkilatın 2026-cı il üzrə turizm paytaxtı seçilib.

Azərbaycan **Türk Dövlətləri Təşkilatı (TDT)** çərçivəsində strateji əhəmiyyət kəsb edən əməkdaşlığa əvvəlki illərdə olduğu kimi xüsusi önəm verib, Təşkilatın bütün əməkdaşlıq sahələrində fəal iştirak edib, bir neçə tədbirə, o cümlədən fövqəladə halların idarə olunması (7 sentyabr tarixində) və şəhərsalma məsələləri üzrə nazirlərin görüşlərinə (30 sentyabr tarixində) ev sahibliyi edib.

3 noyabr 2023-cü ildə Astanada təşkil edilmiş TDT-nin 10-cu Yubiley Zirvə görüşünün Bəyannaməsində üzv dövlətlər tərəfindən əvvəl ifadə edilmiş mövqeyə uyğun olaraq Azərbaycan və Ermənistan arasında normallaşma prosesinə dəstək bir daha təsdiq olunub, 19-20 sentyabrda lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanın suverenliyinin tam bərpası alqışlanıb, üzv dövlətlərin postmünaqişə dövründə Azərbaycanda reabilitasiya və yenidənqurma işlərinə bundan sonra da töhfə verməyə hazır olduğu bildirilib.

2023-cü ildə Azərbaycan tərəfi **İslam Əməkdaşlıq Təşkilatı (İƏT)** çərçivəsində üzv dövlətlər arasında sahəvi əməkdaşlığın gücləndirilməsinə öz töhfələrini verməkdə davam edib. Bununla bağlı, 21-23 noyabr tarixlərində ölkəmizin İƏT üzv dövlətlərinin əmək nazirlərinin konfransına ev sahibliyi etməsini, bu tədbir zamanı mənzil-qərargahı Bakı şəhərində yerləşən İƏT Əmək Mərkəzinin Baş Assambleyasının açılış sessiyasının keçirilməsini və bununla da Əmək Mərkəzinin (“OIC Labour Center”) fəaliyyətə başlamasını qeyd etmək olar.

16-17 mart tarixlərində Mavritaniyanın paytaxtı Nuakşot şəhərində keçirilən İƏT XİNŞ-in 49-cu sessiyasında “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticələrinin aradan qaldırılması”, “1992-ci il Xocalı qırğınının qurbanları ilə həmrəylik”, “Azərbaycan Respublikasına iqtisadi yardım”, “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsi olaraq Azərbaycan Respublikasının ərazilərində İslam dininə aid tarixi və mədəni abidələrin dağıdılması və təhqir olunması” və “Azərbaycan Respublikasının Tehrandakı Səfirliyinə qarşı hücum” adlı beş qətnamə qəbul edilib. Bundan əlavə, il ərzində İƏT-in Baş Katibliyi tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycanın ədalətli mövqeyini və haqq işini dəstəkləyən bəyanatlar verilib.

2024-cü il üçün Şuşa şəhəri İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) tərəfindən “İslam dünyasının mədəniyyət paytaxtı”, İƏT Gənclər Forumu tərəfindən isə “İslam dünyasının gənclər paytaxtı” seçilib.

İl ərzində Azərbaycan Respublikası ilə **Avropa İttifaqı (Aİ)** arasında enerji, nəqliyyat və digər sahələrdə əməkdaşlıqla bağlı dialoq davam edib. Aİ ilə ölkəmizin gələcək əməkdaşlığının hüquqi əsasını təşkil edəcək yeni ikitərəfli saziş layihəsinin “İnstitusional, ümumi və yekun müddəalar” bölməsi üzrə danışıqlar raundu keçirilib. Aİ-nin “Şərq Tərəfdaşlığı” (ŞT) Proqramının yüksək səviyyəli rəsmilərinin və ŞT ölkələri xarici işlər nazirlərinin iclaslarında ölkəmizin iştirakı təmin olunub.

2023-cü ildə Azərbaycan Respublikası **Müstəqil Dövlətlər Birliyi (MDB)** çərçivəsində müxtəlif, xüsusən də mədəniyyət, humanitar, elm və digər istiqamətlərdə aparılan əməkdaşlığı davam etdirib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 13 oktyabr tarixində MDB Dövlət Başçıları Şurasının Bişkek şəhərində keçirilən iclasında iştirak edib. 8 iyun və 26 oktyabr tarixlərində MDB Hökumət Başçıları Şurasının Soçi və Bişkekdə keçirilən iclaslarında müvafiq olaraq Baş nazir Əli Əsədov və Baş nazirin müavini Şahin

Mustafayev iştirak ediblər. 12 oktyabr 2023-cü ildə MDB Xarici İşlər Nazirləri Şurasının Bişkek şəhərində keçirilən iclasında xarici işlər naziri Ceyhun Bayramov iştirak edib. 26 dekabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev MDB Dövlət Başçılarının Sankt-Peterburq şəhərində keçirilmiş qeyri-rəsmi görüşündə iştirak edib.

5 dekabr tarixində Moskva şəhərində **Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin ilk görüşü** keçirilib. Görüşdə Xəzəryanı dövlətlər arasında müxtəlif, o cümlədən iqtisadi, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bağlantılar, ətraf mühitin mühafizəsi və s. sahələr üzrə sektoral əməkdaşlıq gündəliyi ətrafında fikir mübadiləsi aparılıb. Öz çıxışında nazir Ceyhun Bayramov Xəzər dənizindən sülh, dostluq və həmrəylik məqsədləri naminə birgə istifadə üçün Azərbaycan tərəfinin mövqeyi, gözləntiləri və konkret təkliflərini səsləndirib.

İl ərzində hərbi-siyasi məsələlər üzrə çoxtərəfli və ikitərəfli əməkdaşlıq məsələlərinə diqqət ayrılıb. Bu müstəvidə **Azərbaycan-NATO** tərəfdaşlığı öz əhəmiyyətini saxlayıb, tərəflər arasında həm siyasi dialoq, həm də praktiki əməkdaşlıq davam etdirilib.

Nüvə texnologiyalarından sülh məqsədilə istifadə sahəsində beynəlxalq əməkdaşlığa böyük əhəmiyyət verən Azərbaycan tərəfi 1-3 mart tarixlərində **Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin** Baş direktoru Rafael Mariano Qrossini qəbul edib. Aparılmış müzakirələr Agentliklə Azərbaycan arasında əməkdaşlığın perspektiv istiqamətlərinin müəyyən edilməsi baxımından faydalı olub.

Mühüm neft-kimya sənayesinə malik Azərbaycan **Kimyəvi silahların qadağan edilməsi Təşkilatının** kimya sənayesindən sülh məqsədilə istifadənin təşviq edilməsinə daha artıq diqqət göstərməsini təqdir edərək bu Təşkilat nəzdində yaradılmış Kimya Texnologiyaları Mərkəzinə maliyyə töhfəsi verib.

**2023-cü il ərzində beynəlxalq qurumların seçkili vəzifələrinə Azərbaycan Respublikası tərəfindən namizədliklərin irəlilədilməsi** istiqamətində fəaliyyət davam etdirilib. Bu xüsusda, Azərbaycanın 2023-2025-ci illər üzrə Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasına, 2023-2027-ci illər üzrə "Mədəni dəyərlərin qanunsuz olaraq ölkəyə gətirilməsi, ölkədən çıxarılması və mülkiyyət hüququnun qanunsuz olaraq başqasına verilməsinin qadağan olunması və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" 1970-ci il Konvensiyasının Yardımçı Komitəsinə, 2023-2027-ci illər üzrə UNESCO-nun İnsan və Biosfer Proqramı üzrə Beynəlxalq Koordinasiya Şurasının (MAB-ICC) üzvlüyünə seçilməsini göstərmək olar.

BMT sisteminin ən irimiqyaslı tədbiri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) 29-cu Tərəflər Konfransına (COP-29) ev sahibliyi üzrə Azərbaycan Respublikasının namizədliyinin təsdiq olunması xüsusilə qeyd edilməlidir.

**Yaxın Şərqdə vəziyyətin gərginləşməsi** ilə əlaqədar ölkəmizin diplomatik təmasları intensivləşib. İsrail-Fələstin münaqişə zonasında baş verən son hadisələr ilə bağlı 18 oktyabr tarixində İslam Əməkdaşlıq Təşkilatının İcraiyyə Komitəsinin nazirlər səviyyəsində keçirilən növbədənkənar iclasında ölkəmiz xarici işlər naziri səviyyəsində təmsil olunub. 11 noyabr tarixində xarici işlər naziri Ceyhun Bayramov Ər-Riyadda Birgə Ərəb İslam Fövqəladə Sammitində iştirak və çıxış edib. Çıxış zamanı İsrail-Fələstin münaqişə zonasında mövcud gərginliyin davam etməsinin, xüsusilə mülki şəxslərin münaqişədən ən çox əziyyət çəkən tərəf olmasının ciddi narahatlıq doğurduğu vurğulanıb, vəziyyətin təcili deeskalasiyası, habelə hərbi əməliyyatların təxirəsalınmaz şəkildə dayandırılması istiqamətində çağırış edilib. İsrail-Fələstin münaqişəsinin beynəlxalq hüquq normaları və BMT-nin müvafiq

qətnamələrinə uyğun olaraq, iki dövlət prinsipi əsasında həll olunmasının vacibliyi vurğulanıb.

## İqtisadi diplomatiya

Azərbaycan uzun illər ərzində regional və qlobal əhəmiyyətli iqtisadi, enerji, nəqliyyat kommunikasiyalarının inkişaf etdirilməsi istiqamətində təşəbbüslər irəli sürüb və əməli addımlar atıb.

İl ərzində ixrac coğrafiyamızın genişləndirilməsi, sərmayə əməkdaşlığının təşviq edilməsi, işğaldan azad olunmuş ərazilərimizdə gedən genişmiqyaslı bərpa və yenidənqurma proseslərində xarici şirkətlərin iştirakının təşviqi məqsədilə xarici ölkələr ilə ikitərəfli müstəvidə müvafiq işlər davam etdirilib.

2023-cü ildə Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinin təminində və tranzit daşımalarında oynadığı rolu daha da artıb.

10 dekabr tarixində Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun açılış mərasimi keçirilib, habelə sözügedən mərasimdə Azərbaycan Respublikasının Prezidenti iştirak edib.

Bununla yanaşı, ölkəmizin tranzit-nəqliyyat potensialının gücləndirilməsi istiqamətində müvafiq fəaliyyət həyata keçirilib. Şərq-Qərb, Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizləri, regional nəqliyyat və infrastruktur layihələrinin reallaşdırılması istiqamətində səy göstərilib.

Ötən il Bakı şəhərində Azərbaycan ilə İran arasında imzalanmış “İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında Anlaşma Memorandumu” çərçivəsində 6 oktyabr tarixində Zəngilan rayonunun Ağbənd qəsəbəsi yaxınlığında avtomobil körpüsü və sərhəd-gömrük infrastrukturunun inşası, ərazidə sahilbərkitmə tədbirləri layihələrinin təməlqoyma mərasimi keçirilib və tikinti işlərinə başlanılıb.

Bu il ərzində 22 hökumətlərarası komissiyanın (Birləşmiş Krallıq, Rusiya, Rusiya Federasiyanın Tatarıstan Respublikası, Mərakeş, Hindistan, İraq, İsrail, Litva, Çex Respublikası, Belarus, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğız Respublikası, Çin, Polşa, Koreya, Rumıniya, Serbiya, Macarıstan, Moldova) və 2 İşçi Qrupunun (Almaniya, Albaniya) iclaslarının təşkili işləri uğurla həyata keçirilib.

## Humanitar diplomatiya

2023-cü ildə ölkəmizin **BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO)** çərçivəsində irəli sürülmüş çoxsaylı təşəbbüsləri reallaşdırılıb. Bu xüsusda, “Xurşidbanu Natəvanın “Gül dəftəri” – illüstrasiyalı şeirlər albomu” adlı nominasiya UNESCO-nun Dünya Yaddaşının Beynəlxalq Reyestrinə, “Hirkan meşələri”, “Xınalıq və Köç yolu mədəni landşaftı”nın UNESCO-nun Ümumdünya İrs Siyahısına, “Xudafərin körpüləri”, “Azıx və Tağlar mağaraları – Azərbaycanın tarixdən əvvəlki yerləri” nominasiyalarının UNESCO-nun İlkin Siyahısına, Azərbaycanın görkəmli memarı Əcəmi ibn Əbubəkr Naxçıvaninin anadan olmasının 900 illik və “Divani-Lüğəti-Türk”ün 950 illik yubileylərinin Yubileylər Siyahısına, “Balaban sənətkarlığı və ifaçılıq sənəti” və “Sədəf sənətkarlığı” (Azərbaycan və Türkiyə) Bəşəriyyətin Qeyri-maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilməsini, bununla

da Siyahıda olan irs nümunələrimizin sayının 23-ə çatmasını vacib misallar kimi qeyd etmək olar.

Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasının aidiyyəti qurumlarla əməkdaşlığı nəticəsində Afrika ölkələrinin UNESCO üzrə Milli Komissiyalarının Baş katibləri və nümayəndələri üçün təlim proqramı, eləcə də müxtəlif konfranslar, sərgilər və digər tədbirlər təşkil olunub.

7-8 aprel tarixlərində Bakıda və Şuşada UNESCO üzrə AR Milli Komissiyası, TÜRKSOY, ADA Universitetinin birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu İclası keçirilib, Yekun bəyannamə qəbul edilib.

26-29 iyun tarixlərində UNESCO-nun Bədən Tərbiyəsi və İdman üzrə Nazirlərin və Yüksək Vəzifəli Şəxslərin VII Beynəlxalq Konfransı (MINEPS VII) Bakı şəhərində keçirilib. Sözügedən Konfransda 124 ölkədən 540-dan çox nümayəndə, 37 nazir və yüksək vəzifəli şəxslər iştirak ediblər. Konfransın sonunda “Bakı Bəyannaməsi” qəbul edilib.

Azad edilmiş torpaqlarımızın işğal dövründə urbisidə məruz qalması məsələsinə diqqət çəkilməsi və həmin ərazilərdə şəhər planlaşdırılmasının yüksək standartlara uyğun olaraq həyata keçirilməsinin ölkəmiz qarşısında duran əsas prioritetlərdən birinə çevrilməsi, başlıca məqsədi insanların layiqli yaşayış yeri ilə təmin edilməsi və keyfiyyətli urbanizasiyanı təşviq etmək olan **BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat)** ilə əməkdaşlığın 2023-cü ildə də səmərəli şəkildə davam etdirilməsi üçün əsas olub. Bu sahədə məşvərətçi dəstəyin göstərilməsi üçün 2023-cü il may ayından UN-Habitatın eksperti ölkəmizdə fəaliyyətə başlayıb. Bundan əlavə, 29 sentyabr - 2 oktyabr tarixlərində Azərbaycanda UN-Habitatla əməkdaşlıq çərçivəsində “Şəhərsalma həftəsi” keçirilib.

Ölkəmiz 2026-cı ildə keçiriləcək 13-cü Dünya Şəhər Forumuna ev sahibliyi etmək hüququ qazanıb.

Minalardan əziyyət çəkən ölkə kimi Azərbaycan, **minaların sülhə və təhlükəsizliyə təhdid törətməsi**, insan hüquqlarını pozması və sosial-iqtisadi inkişafa maneə yaratmasını daim gündəmdə saxlayıb. Ölkəmizin üzləşdiyi mina probleminin aradan qaldırılması üçün aparılan genişmiqyaslı humanitar minatəmizləmə əməliyyatları barədə beynəlxalq səviyyədə məlumatlandırma işi və humanitar minatəmizləmə əməliyyatlarına beynəlxalq yardımın cəlb edilməsi istiqamətində səylər davam etdirilib.

Azərbaycan bu sahədə fəaliyyəti ilə yalnız mina problemini gündəliyə gətirməklə kifayətlənməyərək, mina mövzusuna dair beynəlxalq siyasi dialoq və əməkdaşlığın formalaşmasına öz töhfəsini verib. Artıq ənənə halını almış, humanitar minatəmizləmə mövzusunda Bakıda ildə bir dəfə keçirilən beynəlxalq konfrans bu sahədə mühüm dialoq formatına çevrilib. 5-6 iyul tarixlərində Bakda keçirilmiş QH Əlaqələndirici Bürosunun Nazirlər iclasının yekun sənədində Azərbaycanın təşəbbüsü əsasında “Humanitar minatəmizləmə və əlaqəli məsələlərdə məsləhətləşmə və praktiki əməkdaşlıq üzrə Təmas Qrupu”nun yaradılması razılaşdırılıb, 8 sentyabr tarixində Nyu-Yorkda bu Qrupun ilk iclası keçirilib. Bundan əlavə, Azərbaycanın təşəbbüsü ilə UNESCO silahlı münaqişələr zamanı mədəni irsin qorunmasının xüsusi bir istiqaməti kimi, minaların mədəni mülkiyyətə təsiri mövzusunda xüsusi qətnamə qəbul olunub.

18 sentyabr tarixində Bakıda 30 Avqust - Beynəlxalq Məcburi Yoxaçıxma Qurbanları (itkin düşmüş şəxslər) Günü münasibətilə **“İtkin düşmüş şəxslərin taleyinin aydınlaşdırılması istiqamətində milli və beynəlxalq səylərin artırılması”** mövzusunda beynəlxalq konfrans

keçirilib. Konfrans iştirakçıları adından beynəlxalq ictimaiyyətə ünvanlanmış bəyanat qəbul edilib.

14 noyabr tarixində BMT-nin İnsan Hüquqları Şurasının (İHŞ) Universal Dövri İcmal (UDİ) üzrə İşçi Qrupunun 44-cü sessiyası çərçivəsində Azərbaycan Respublikasının 4-cü dövri məruzəsi nəzərdən keçirilib. Dövri məruzə çərçivəsində ölkəmizdə həyata keçirilən işlər, beynəlxalq insan hüquqları mexanizmləri çərçivəsində əməkdaşlıq, "Böyük Qayıdış" dövlət proqramı, Ermənistanın təcavüzü nəticəsində yaranmış qaçqın və məcburi köçkün problemi, azərbaycanlıların hüquqlarını pozulması faktları, itkin düşmüş şəxslər məsələsi və s. ilə bağlı ətraflı məlumat təqdim olunub. Bununla yanaşı, İHŞ-nın 54-cü sessiyası çərçivəsində Azərbaycan tərəfindən QH adından irəli sürülmüş və yüzdən çox ölkənin həmmüəllif olaraq qoşulduğu inkişaf hüququ üzrə qətnamə qəbul edilib.

Azərbaycan tərəfi **Qərbi Azərbaycan İcmasının** Ermənistandan qovulmuş azərbaycanlıların beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etməklə, öz evlərinə sülh yolu ilə, təhlükəsiz şəkildə və ləyaqətlə qayıdış hüququnun təmin edilməsi istiqamətində fəaliyyətini insan hüquqları sahəsində beynəlxalq normaların yerinə yetirilməsi baxımından vacib hesab edir.

## Beynəlxalq yardım fəaliyyəti

2023-cü ildə Azərbaycan beynəlxalq inkişafa yardım fəaliyyətinə xüsusi diqqət ayırıb. İl ərzində dünyanın ən az inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrinə humanitar, texniki yardım davam etdirilib. İnkişafa yardım layihələri əsasən müxtəlif təyinatlı elmi tədqiqat, təlim və təqaüd proqramlarının dəstəklənməsi, xarici dövlətlərdə əhalinin ən çox ehtiyac duyduğu sosial infrastruktur sahələrində layihələrin həyata keçirilməsi, habelə beynəlxalq təşkilatlar tərəfindən dünyanın bir sıra ölkələrində icra olunan layihə və fəaliyyətlərə töhfələrin ayrılmasından ibarət olub. Qardaş Türkiyə Respublikasında 6 fevral tarixində baş vermiş dağıdıcı zəlzələ, eləcə də Ukraynaya göstərilmiş yardımlar Azərbaycan Respublikasının cari ildəki beynəlxalq yardım fəaliyyətində xüsusi çəkiyə sahib olub. Bununla bağlı, görülən işlər qismində misal kimi aşağıdakıları göstərmək olar:

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev QH çərçivəsində **Afrikanın və İnkişaf etməkdə olan kiçik ada dövlətlərinin** pandemiya sonrası bərpası məqsədilə iki Qlobal Çağırış elan edib. Azərbaycan ilk töhfə verən ölkə kimi hər bir Çağırışa 1 milyon ABŞ dolları ayırıb.

Cari ildə BMT-nin Fövqəladə Hallara qarşı Mərkəzi Cavab Fondu, Afrika Potensialının Gücləndirilməsi Fondu və digər bu kimi qurumlara maliyyə dəstəyi, İslam İnkişaf Bankı və digər tərəfdaşlarla birgə Afrika ölkələrində həyata keçirilən "Qarşısı alına bilən görmə qabiliyyətinin itirilməsi ilə mübarizə" kampaniyasının Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi (AIDA) tərəfindən dəstəklənməsi davam edib, Efiopiya, Qvineya-Bissau və İraq kimi ölkələrdə məktəb və xüsusi tədris müəssisələrinə yardımlar edilib.

**Təqaüd və təlim proqramları** ölkəmizin beynəlxalq yardım fəaliyyətinin prioritetlərindən biri olub. 2022-2023-cü tədris ilində İƏT və QH-ya üzv dövlətlərin vətəndaşları üçün nəzərdə tutulmuş təhsil qrantı proqramı (5 illik, 2018-2022-ci illər üzrə) çərçivəsində tam təqaüdlə təmin edilmiş tələbələrin sayı ümumilikdə 200-ə çatıb. AR Prezidenti cənab İlham Əliyevin 8 iyul 2023-cü il tarixli Sərəncamı ilə İƏT, QH və İnkişaf etməkdə olan Kiçik Ada Dövlətləri qrupuna daxil olan ölkələrin, eləcə də ölkəmizlə etnik, tarixi və mədəni bağlara malik xalqlar və azlıqların yaşadığı ölkələrin vətəndaşları üçün "Heydər Əliyev adına Beynəlxalq Təhsil

Qrantı" proqramı təsis edilib. Ölkəmizin ali təhsil müəssisələrində hazırlıq kurslarında və ali təhsilin bakalavriat, magistratura, doktorantura, əsas (baza ali) tibb təhsili və rezidentura səviyyələrində təhsil almaları üçün illik əsasda 100 nəfər tələbənin qəbulunu nəzərdə tutan 5 illik proqram çərçivəsində ilk tələbə qəbulu 2024-2025-ci tədris ilində keçiriləcək.

**Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin** ilk günlərindən etibarən Azərbaycan tərəfindən qardaş dəstəyi nümayiş etdirilərək dərhal axtarış və xilasetmə dəstələri, tibbi heyət, könüllülər, habelə müxtəlif humanitar yardımlar göndərilib. Azərbaycan sözügedən bölgəyə 940 nəfər xilasedici, tibbi personal və könüllü dəstələri, habelə 5 min 300 tondan artıq humanitar yük göndərib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. 20 mart tarixində Brüsseldə keçirilmiş "Türkiyə və Suriyadakı insanlar üçün birlikdə" adlı Beynəlxalq Donorlar Konfransında nazir Ceyhun Bayramov iştirak edib və Prezident İlham Əliyevin göstərişi ilə Türkiyənin zəlzələ bölgəsində bərpa və quruculuq işlərinə töhfə məqsədilə yaşayış binalarının, sosial təyinatlı obyektlərin və təhsil ocaqlarının tikintisi üçün 100 milyon ABŞ dolları məbləğində dəstəyin göstəriləcəyi elan olunub.

Azərbaycan Respublikasının **Ukraynaya humanitar yardımı** bu il də davam edib. Ümumilikdə, Azərbaycan Respublikası tərəfindən Ukraynaya göstərilmiş humanitar, eləcə də bərpa və yenidənqurma məqsədli yardımın məbləği 57 milyon manatdan artıq (təxminən 34 milyon ABŞ dolları) təşkil edir ki, bunun yarıya qədəri cari il ərzində həyata keçirilib.

Dekabr ayında **Qəzza zolağında mülki əhaliyə yardım** göstərilməsi məqsədilə BMT-nin Yaxın Şərqdəki Fələstinli Qaçqınlar üzrə Yardım və İş Agentliyinə (UNRWA) maliyyə yardımı olaraq 2 milyon ABŞ dolları məbləğində vəsait ayrılıb.

Bununla yanaşı, Pakistan, Sloveniya, Malavi, Vanuatu, Burkina Faso, Çad, Niger, Beliz, Yəmən və Sudana yardımlar göstərilib.

## Postmünaqişə dövründə diplomatik fəaliyyət

2023-cü il ərzində Ermənistan və Azərbaycan arasında bir-birinin suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin qarşılıqlı tanınması və hörmət edilməsi əsasında münasibətlərin normallaşdırılması ilə bağlı Azərbaycan tərəfindən irəli sürülmüş gündəlik davamlı olaraq irəlilədilib. Ölkəmizə qarşı Ermənistan və onun havadarları tərəfindən aparılan qarayaxma kampaniyasının qarşısının alınması, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidlərin neytrallaşdırılması istiqamətində addımların beynəlxalq ictimaiyyətə izah edilməsi, bu addımları sual altına almaq və məhdudlaşdırmaq cəhdlərinin qarşısının alınmasına yönəlmiş ardıcıl, sistemli və qətiyyətli xarici siyasət fəaliyyəti həyata keçirilib.

Görülmüş məqsədyönlü işlər nəticəsində xüsusilə BMT Təhlükəsizlik Şurası, Beynəlxalq Ədalət Məhkəməsi və digər beynəlxalq platformalarda Azərbaycanın maraqlarına uyğun gəlməyən təşəbbüslərin qarşısı effektiv şəkildə alınıb.

Siyasi, diplomatik, hüquqi və media sahələri başda olmaqla, Azərbaycana qarşı aparılan sistemli fəaliyyətə baxmayaraq, Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqların gündəliyinin Azərbaycan tərəfindən 2022-ci ildə irəli sürülmüş beş əsas prinsip əsasında qurulması təmin edilib və il ərzində danışıqlar müstəsna olaraq, bu əsasda davam etdirilib.

İl ərzində münasibətlərin normallaşma gündəliyi ikitərəfli münasibətlərin əsaslarını müəyyən edəcək sazişin hazırlanması, sərhədlərin delimitasiyası və iki dövlət arasında nəqliyyat və kommunikasiya əlaqələrinin bərpası kimi üç əsas istiqamətdə qurulub.

2023-cü il ərzində Azərbaycan və Ermənistan liderləri arasında 18 fevral tarixində ABŞ Dövlət katibi Antoni Blinkenin təşkilatçılığı ilə Münxendə, 25 may tarixində Rusiya Prezidenti Vladimir Putinin iştirakı ilə Moskvada, 1 iyun tarixində Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişelin, Almaniya Kansleri və Fransa Prezidentinin iştirakı ilə Kişineuda, 15 iyul tarixində Aİ Şurasının Prezidenti Ş.Mişelin iştirakı ilə Brüsseldə olmaqla ümumilikdə 4 görüş keçirilib. Bununla yanaşı, 26 dekabr tarixində MDB Dövlət Başçılarının Sankt Peterburqda keçirilmiş qeyri-rəsmi iclası çərçivəsində Azərbaycan Prezidenti və Ermənistan Baş naziri arasında qeyri-rəsmi ikitərəfli görüş baş tutub.

Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında isə 2023-cü ilin 1-4 may tarixlərində Vaşinqtonda, 19 may tarixində Moskvada, 27-29 iyun tarixlərində Vaşinqtonda, 25 iyul tarixində Moskvada ümumilikdə 4 görüş keçirilib. Bununla yanaşı, Azərbaycan tərəfinin təşəbbüsü ilə 23 oktyabr tarixində xarici işlər nazirlərinin Tehranda qeyri-rəsmi görüşü baş tutub.

Cari ildə, Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın 12 iyul və 30 noyabr tarixlərində iki görüşü keçirilib. Hər iki ölkə tərəfindən iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi Reqlamenti təsdiqlənib.

Lakin, il ərzində Ermənistan-Azərbaycan arasında normallaşma istiqamətində ikitərəfli təmaslarda nəzərə çarpan dinamika olmasına baxmayaraq, normallaşmanın hər üç istiqamətində ciddi tərəqqinin əldə edilməsi mümkün olmayıb. Ermənistanın davamlı olaraq öz öhdəliklərinə əməl etməməsi, danışıqları imitasiya edərək, Azərbaycanın suveren ərazilərində qanunsuz hərbi mövcudluğu davam etdirmək və möhkəmləndirmək cəhdləri danışıqlarda əhəmiyyətli irəliləyişin əldə edilməsinə imkan verməyib.

Bununla belə, 19-20 sentyabr tarixlərində aparılan uğurlu lokal xarakterli antiterror tədbirləri Ermənistanın Azərbaycanın suveren ərazilərində qanunsuz hərbi mövcudluğuna və təcavüzkar separatizmin təşviqinə əsaslanan yeni “status-kvo” formalaşdırmaq cəhdlərinə qəti şəkildə son qoymaqla, iki ölkə arasında beynəlxalq hüququn norma və prinsipləri əsasında münasibətlərin təsis edilməsi üçün tarixi imkan yaradıb.

Ermənistanla ikitərəfli dövlətlərarası münasibətlərin normallaşdırılması ilə yanaşı, postmünaqişə kontekstində bərpa və quruculuq istiqamətində beynəlxalq tərəfdaşlığın inkişaf etdirilməsi də il ərzində əsas diqqət mərkəzində olub.

2023-cü ildə xarici işlər nazirinin səfərləri və iştirak etdiyi beynəlxalq tədbirlər çərçivəsində xarici həmkarları ilə keçirdiyi 70-dən çox görüşdə postmünaqişə mərhələsində bölgədə mövcud olan reallıqlar və ölkəmizin dayanaqlı sülh naminə atdığı addımlar barədə ətraflı məlumat təqdim edilib.

İşğaldan azad olunmuş ərazilərə xarici rəsmilərin, parlamentarilərin, beyin mərkəzlərinin nümayəndələrinin və jurnalistlərin çoxsaylı səfərləri təşkil olunub.

## Ermənistana qarşı beynəlxalq hüquqi tədbirlər

Ermənistanın təxminən 30 il ərzində işğal altında saxladığı ərazilərimizdə törətdiyi cinayətlərin ifşa edilməsi və bu əməllərə görə Ermənistanın beynəlxalq hüquqi məsuliyyətinin təsbit edilməsi istiqamətində işlər davam etdirilib.

Azərbaycan tərəfi Ermənistanı Azərbaycanın ətraf mühitinə vurduğu ağır zərbəyə və biomüxtəlifliyinin geniş miqyasda məhv edilməsinə görə məsuliyyətə cəlb etmək məqsədilə 18 yanvar tarixində "Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında" Avropa Konvensiyasına uyğun olaraq indiyədək məlum olan ilk dövlətlərarası arbitraj prosesini başladıb. 27 fevral tarixində Enerji Xartiyası Müqaviləsinə uyğun olaraq Ermənistana qarşı digər bir arbitraj prosesi başlayıb. Azərbaycan tərəfi Ermənistandan işğal dövründə enerji resurslarımız üzərində suveren hüquqlarımızı pozması ilə bağlı təzminat tələb edib.

23 yanvar tarixində "İrqi Ayrı-Seçkiliyin Bütün Formalarının Ləğv Edilməsi haqqında" Beynəlxalq Konvensiyanın (Konvensiya) tətbiqi ilə bağlı davam edən icraat üzrə Azərbaycanın əsas iddia sənədi Beynəlxalq Ədalət Məhkəməsinə (BƏM) təqdim edilib. Əsas iddia sənədi otuz il ərzində Azərbaycan dövlətinə və xalqına qarşı törədilmiş cinayətlərə dair minlərlə səhifəlik dəlillərə əsaslanır. Sənəd, Ermənistan tərəfindən ən dəhşətli aktlardan biri olan etnik və milli mənsubiyyətə görə təmizləmə nəticəsində qətlə yetirilmiş, didərgin salınmış və zərər çəkmiş azərbaycanlılar haqqında ətraflı məlumatları ehtiva edir.

İl ərzində Konvensiya üzrə BƏM-də üç dəfə açıq dinləmələr keçirilib. 31 yanvar tarixində keçirilmiş dinləmələrdə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki ərazilərində minaların və partlayıcı tələlərin qəsdən yerləşdirilməsinin davam etməsi nəticəsində insan itkilərinin artması yeni sübutlarla təqdim edilib.

BƏM-in 22 fevral tarixli qərarı ilə Ermənistanın Azərbaycan qarşı irəli sürdüyü, bir qrup azərbaycanlı eko-aktivistlərin Xankəndi-Laçın yolunda keçirdiyi etiraz aksiyalarının guya "Azərbaycan hökuməti tərəfindən təşkil olunduğu" və "Azərbaycanın təbii qazın və s. kommunal xidmətlərin (məsələn, elektrik enerjisi və internet) verilməsinə mane olduğu" barədə iki əsas iddiası rədd edilib.

BƏM-in 6 iyul tarixli qərarı ilə Ermənistanın Həkəri çayı üzərində sərhəd nəzarət-buraxılış məntəqəsinin "Laçın yolu boyunca hərəkətə mane olması" ilə bağlı növbəti vəsatətləri rədd edilib.

BƏM 17 noyabr tarixli qərarı ilə Ermənistanın Azərbaycan Silahlı Qüvvələri tərəfindən həyata keçirilmiş lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində guya erməni sakinlərinin hüquqlarının pozulması, Azərbaycanın bütün hərbi və hüquq-mühafizə orqanlarının şəxsi heyətinin Qarabağ bölgəsindən çıxarılması ilə bağlı əsassız tələbləri rədd edilib. Məhkəmənin bu qərarı Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edib, Ermənistanın Azərbaycanın Qarabağ bölgəsi üzərində qəbul edilmiş və beynəlxalq səviyyədə tanınmış suverenliyini şübhə altına alan tələbini rədd edib.

Əlavə olaraq, Ermənistanın Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində, Arazdəyən (Yerasx) qəsəbəsi yaxınlığında inşa etməyə başladığı iri metallurgiya zavodunun mümkün zərərli transsərhəd təsirləri Azərbaycan tərəfinin haqlı narahatlığına səbəb olub. Bu xüsusda, Ermənistan tərəfi 1991-ci il BMT-nin Avropa İqtisadi Komissiyasının "Transsərhəd kontekstdə Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyası" çərçivəsində il ərzində görülmüş tədbirlər nəticəsində zavodun yerinin

dəyişdirildiyini və transsərhəd ziyanla bağlı Konvensiyaya uyğun olaraq Azərbaycanla danışıqlara hazır olduğunu bildirib.

## Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə fəaliyyət

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikası vətəndaşlarının hüquq və mənafelərinin müdafiəsi, onlara göstərilən konsulluq xidmətlərinin inkişaf etdirilməsi prioritet məsələlərdən biridir.

1990-cı illərdən etibarən Türkiyə Respublikasına mühacirət etmiş və hazırda orada qeyri-qanuni yaşayan Azərbaycan Respublikası vətəndaşı olması ehtimal olunan şəxslər, o cümlədən onların Türkiyə ərazisində anadan olmuş ailə üzvləri ilə bağlı müvafiq iş davam etdirilib və digər tədbirlərlə yanaşı, 2022-2023-cü illərdə qəbul olunmuş pasport müraciətləri əsasında, 2746 pasport vətəndaşlara təqdim edilib.

Həmçinin, 2023-cü il ərzində Azərbaycan Hökuməti tərəfindən vətəndaşlarımızın repatriasiyası, xarici ölkələrdə baş vermiş hərbi münaqişə, təbii fəlakət və digər böhran halları ilə əlaqədar təxliyəsi istiqamətində fəaliyyət həyata keçirilib.

**Türkiyə Respublikasında baş vermiş zəlzələ** nəticəsində 661 nəfər Azərbaycan Respublikası vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları zəlzələ bölgəsindən təxliyə olunublar. 26 aprel tarixində **Sudan Respublikasındakı vəziyyət** ilə əlaqədar bu ölkədə yaşayan 26 Azərbaycan Respublikasının vətəndaşı ölkəmizə repatriasiya olunublar. **Qəzza sektorundan (Fələstin)** 12 nəfər Azərbaycan Respublikası vətəndaşının ölkəmizə gətirilməsi istiqamətində əlaqələndirmə işləri aparılıb.

İl ərzində **Suriya Ərəb Respublikasından** ölkəmizə 13 nəfər qadın, 49 nəfər uşaq olmaqla 62 nəfərin repatriasiyası həyata keçirilib. Eyni zamanda, **İraqdan** Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizə repatriasiyası həyata keçirilib. Hazırda İraq Respublikasında Azərbaycan Respublikası vətəndaşlığı mənsubiyyəti müəyyənləşdirilmiş azyaşlı qalmayıb.

2023-cü ildə Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri, Serbiya Respublikası və Qətər Dövləti arasında ümumvətəndaş pasportlarına malik olan şəxslərə münasibətdə vizasız səfər etmək imkanı yaradılıb.

Xarici İşlər Nazirliyinin qəbul Mərkəzində və Azərbaycan Respublikasının xarici ölkələrdəki 28 diplomatik nümayəndəlik və konsulluqlarında Elektron Növbə Portalı sistemi (appointment.mfa.gov.az) istifadəyə verilib. Digər istifadəyə verilmiş elektron xidmət - “Viza almaq üçün ərizə-anket” portalı (www.visaapplication.mfa.gov.az) olub. İl ərzində Azərbaycan Respublikasının 22 diplomatik nümayəndəlik və konsulluğunun Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin “Vətəndaşlıq vəziyyəti aktları” və “Elektron notariat” elektron informasiya sistemlərinə qoşulması təmin edilib.

## Xarici İşlər Nazirliyi tərəfindən təşkil olunan konfranslar, xarici siyasətin informasiya təminatı və analitik iş

İl ərzində 80-dən çox xarici dövlətdə “Heydər Əliyev İli” çərçivəsində konfrans, simpozium, dəyirmi masa, sərgi və konsertlər keçirilib, kitab və jurnallar nəşr olunub, sənədli film və videoçarxlar nümayiş etdirilib.

“Heydər Əliyev İli” ilə əlaqədar həmçinin Xarici İşlər Nazirliyi tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Müşfiqabad qəsəbəsində ağacəkmə tədbiri keçirilib, Xarici

İşlər Nazirliyinin “Diplomatiya Aləmi” jurnalının xüsusi buraxılışı nəşr olunub. Cari ildə Xarici İşlər Nazirliyi əməkdaşlarının “Heydər zirvəsi”nə yürüşü, “Ümummilli Lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda konfrans və “Diplomatiya Həftəsi” təşkil edilib.

“Heydər Əliyev İli” çərçivəsində və Azərbaycan Respublikasında milli mətbuatın yaranmasının 148-ci illiyində keçmiş işğal olunmuş ərazilərimizə qanunsuz səfər etmiş 58 nəfər xarici media nümayəndələrinin adları Azərbaycan ərazilərinə qanunsuz səfər etmiş xarici vətəndaşların siyahısından çıxarılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsi tərəfindən ölkəmiz üçün əhəmiyyətli bir sıra anım tədbirləri, Azərbaycana yaxın, dost və strateji münasibətləri olan ölkələrlə diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə bağlı sərgilər təşkil edilib.

İl ərzində 50-yə yaxın xarici ölkədən təxminən 480 xarici media nümayəndəsi Azərbaycan Respublikasına, o cümlədən işğaldan azad olunmuş ərazilərə səfər ediblər.

Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması məqsədilə Xarici İşlər Nazirliyi Facebook, Twitter, Instagram və YouTube platformalarında aktiv fəaliyyət davam etdirilib. İl ərzində Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsində 740 (25 dekabr 2023-cü il tarixinədək) açıqlama yerləşdirilib, yerli və xarici media, habelə ölkəmizdə akkreditə olunmuş diplomatik korpus üçün 26 brifinq təşkil olunub.

2023-cü il ərzində Xarici İşlər Nazirliyi tərəfindən təhlil işi davam etdirilib, aidiyyəti dövlət qurumlarımıza müvafiq məlumatlar təqdim olunub. İl ərzində nüfuzlu elmi-araşdırma mərkəzləri və təhlilçilər ilə həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda, o cümlədən Böyük Britaniya, Belçika, Rusiya, Hindistan, ABŞ, İsveçrə, Qətər və digər ölkələrdə təmaslar qurulub, birgə tədbirlər təşkil olunub və keçirilən beynəlxalq forumlarda iştirak təmin edilib.

Xarici işlər nazirinin xarici səfərlər çərçivəsində beynəlxalq beyin mərkəzləri və araşdırmaçılarla çoxsaylı görüşləri (Böyük Britaniyada Kral Beynəlxalq Münasibətlər İnstitutunda (Chatham House) dəyirmi masa, Slovakiyada “GLOBSEC” beyin mərkəzinin təşkil etdiyi dəyirmi masa, Xorvatiyada “Cənubi Qafqazda təhlükəsizlik problemləri və Azərbaycan ilə Xorvatiya arasında əməkdaşlıq perspektivləri” mövzusunda dəyirmi masa, BMT-də Akkreditə Olunmuş Müxbirlər Assosiasiyasında (ACANU) aparıcı media qurumları üçün brifinq, Cenevrə Universitetinin Qlobal Araşdırmalar İnstitutu ilə birgə “Regional təhlükəsizlik və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı” mövzusunda dəyirmi masa, Şimali Makedoniyada Azərbaycan tədqiqatları üzrə II Avropa Konfransı, Brüsseldə media və aparıcı beyin mərkəzlərinin nümayəndələri ilə görüş) təşkil olunub.

## Xarici İşlər Nazirliyinin kadr təminatı

Xarici İşlər Nazirliyinin kadr təminatı prosesinin təkmilləşdirilməsi məqsədilə 2021-ci ildə **müsabiqə vasitəsilə diplomatik xidmətə qəbul prosesi** yenidən başlayıb. Ötən müddət ərzində 58 nəfər diplomatik vəzifəyə təyin edilib, bu təyinatlardan 20-si 2023-cü ildə həyata keçirilib.

2023-cü ilin iyun ayında Xarici İşlər Nazirliyində diplomatik xidmətə qəbul üzrə növbəti müsabiqə elan edilib. Nəticədə, Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən Xarici İşlər Nazirliyinə diplomatik xidmətə müsabiqə (iki mərhələdən ibarət yazılı imtahan) həyata keçirilib. Yazılı imtahanın hər iki mərhələsindən müvəffəqiyyətlə keçmiş və iki mərhələnin nəticəsində ən yüksək nəticə əldə etmiş 100 namizəd, həmçinin 10 may-2

iyun 2022-ci il tarixləri ərzində təşkil edilən müsahibə mərhələsində yetərli nəticə göstərməyə nail ola bilməyən 39 namizəd də təşkil olunmuş müsahibə mərhələsinə dəvət edilib. Müsabiqənin müsahibə mərhələsinin 2024-cü yanvar-fevral aylarında keçirilməsi planlaşdırılır.

Cari ildə Azərbaycanın xaricdə 14 nəfər **yeni diplomatik missiya rəhbəri təyinatı** həyata keçirilib.